**Azərbaycan Respublikasının "İstiqlal" ordeninin statutunun və təsvirinin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**
Azərbaycan Respublikasının "İstiqlal" ordeninin statutu və təsviri təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 6 dekabr 1993-cü il
754

Azərbaycan Respublikasının 1993-cü il 6 dekabr tarixli 754 saylı Qanunu ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikasının "İstiqlal" ordeninin**

**STATUTU**

1. Azərbaycan Respublikasının "İstiqlal" ordeni Azərbaycan Respublikasının vətəndaşlarına aşağıdakılara görə verilir:
Azərbaycan Respublikasında milli-azadlıq hərakatında müstəsna xidmətlərinə görə;
Azərbaycan Respublikasının dövləti və xalqı qarşısında xüsusilə görkəmli xidmətlərinə görə;
Azərbaycan Respublikasının milli-dövlət quruculuğu işlərində xüsusi xidmətlərinə görə.
2. "İstiqlal" ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan əvvəl taxılır.

Azərbaycan Respublikasının 1993-cü il 6 dekabr tarixli 754 saylı Qanunu ilə təsdiq edilmişdir.

**"İstiqlal" ordeninin təsviri**[1]

"İstiqlal" ordeni bir-birinin üzərinə qoyulmuş, biri digərinə nisbətən ox ətrafında dönmüş və ikiüzlü hamar şüaları olan iki gümüş səkkizguşəli ulduzdan ibarətdir.

Üstdəki ulduzun ortasında mavi mina ilə örtülmüş girdə lövhə yerləşir. Bu lövhənin üzərində qanadları açılmış quş və qanadların arasında — yuxarıda səkkizguşəli ulduz təsvir olunmuşdur. Ulduzdan yuxarıda qanadlar arasında çevrə boyunca "İstiqlal" sözü yazılmışdır. Quşun, ulduzun təsviri və yazı qabarıqdır, qızıl suyuna çəkilmişdir.

Arxa tərəfi hamar səthlidir, ortasında ordenin *seriyası və* nömrəsi həkk olunmuşdur.[2]

Təltif dəstinə aşağıdakılar daxildir:

boyundan asmaq üçün *37 mm* enində, *6 qızılı xətli,* göy çalarlı lenti olan, 50 mm qabarit ölçülü orden;[3]

*paltara bərkidilmək üçün elementi olan, aşağıya doğru bucaq altında kəsilən, 6 maili qızılı zolaqlı, göy çalarlı, 37 mm x 50 mm ölçüdə lentə halqa və ilgək vasitəsilə birləşdirilən 35 mm qabarit ölçülü orden. Xara lentin yuxarı hissəsinə 40 mm x 5 mm ölçülü gümüşü təbəqə bərkidilir;*[4]

paltara bərkidilmək üçün elementi olan, göy çalarlı, *ölçüsü 37 mm x 10 mm olan 2 ədəd* qəlib. *Qəlibin birinin üzərinə 17 mm x 6 mm ölçüdə sarı rəngli metal lövhə bərkidilmişdir. Metal lövhənin üzərində qoşa sarı xətli tünd qırmızı rəngli dairəvi element mövcuddur.*[5]

**"İSTİQLAL" ordeni** **"İSTİQLAL" orden**

**Boyundan asmaq üçün** **Paltara bərkitmək üçün**

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 6 fevral 1998-ci il tarixli 429-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, 3, maddə 141**)
2. 30 sentyabr 2013-cü il tarixli **722-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 29 noyabr 2013-cü il, 262; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1241**)

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 6 fevral 1998-ci il tarixli 429-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, 3, maddə 141**) ilə Qanuna əlavə olunmuş "İstiqlal" ordeninin təsviri" yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

**~~"İstiqlal" ordeninin təsviri~~**

~~"İstiqlal" ordeni qızıldan və gümüşdəndir, düzgün səkkizguşəli qızıl ulduz şəklindədir. Ulduzun guşələri üzərindəki şüalar onun sağanağına dirənir. Ulduz gümüşdən olan ornamentli dairənin fonundadır. Ulduzun ortasındakı dairədə isə qanadları səkkizguşəli ulduza doğru uzanan aypara şəkilli göyərçin təsvir edilmişdir. Göyərçindən arxa tərəfdə mavi səma fonunda doğan günəş təsviri vardır. Göyərçinin təsvirinə ağ rəngli, səmanın təsvirinə mavi rəngli, günəş və ulduzun təsvirinə isə qızılı rəngli mina çəkilmişdir. Ulduzdan aşağıya doğru dairə boyunca sağanaq şəklində uzanan hörmə ornament "İstiqlal" sözü yazılmış lentlə birləşir. Ornamentə ağ mina çəkilmiş, lent gümüşdən düzəldilmişdir.~~

~~Bütün yazılar və təsvirlər qabarıqdır.~~

~~Ulduzun iki əks ucları arasında ordenin, ölçüsü 57 mm-dir.~~

~~Orden ilgək və halqa ilə dördbucaqlı qəlibə birləşir. Qəlib Azərbaycan Respublikasının dövlət bayrağı şəklində lentlə birləşən ornametli iki hissədən ibarətdir. Lentin eni 19 mm-dir.~~

~~Qəlibin ölçüsü 54 mmX22 mm-dir.~~

-

[2] 30 sentyabr 2013-cü il tarixli **722-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 29 noyabr 2013-cü il, 262; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1241**) ilə üçüncü hissədə "**nömrəsi**" sözündən əvvəl "**seriyası və**" sözləri əlavə edilmişdir.

[3] 30 sentyabr 2013-cü il tarixli **722-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 29 noyabr 2013-cü il, 262; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1241**) ilə dördüncü hissənin ikinci abzasında "**27 mm**" sözləri "**37 mm**" sözləri ilə əvəz edilmişdir, "**göy çalarlı**" sözlərindən əvvəl "**6 qızılı xətli,**" sözləri əlavə edilmişdir.

[4] 30 sentyabr 2013-cü il tarixli **722-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 29 noyabr 2013-cü il, 262; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1241**) ilə dördüncü hissənin üçüncü abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~paltara bərkidilmək üçün elementi olan, beşguşəli 27 mm x 47,5 mm ölçüdə göy çalarlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilən, 35 mm qabarit ölçülü orden;~~

[5] 30 sentyabr 2013-cü il tarixli **722-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 29 noyabr 2013-cü il, 262 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1241**) ilə dördüncü abzasda "**üzərində alov simvolu təsvir edilmiş, ölçüsü 27 mm x 9 mm olan**" sözləri "**ölçüsü 37 mm x 10 mm olan 2 ədəd**" sözləri ilə əvəz edilmişdir və abzasa yeni məzmunda cümlələr əlavə edilmişdir.